UOT 17; 297

# HƏMZƏ NİGARİNİN DİNİ-ETİK GÖRÜŞLƏRİ HAQQINDA

**Fəxriyyə MƏMMƏDZADƏ***

***Açar sözlər:*** *Qarabağ mədəniyyəti, dini-etik baxışlar, vətənsevərlilik, azadlıq, ədalət*

***XÜLASƏ***

Məqalədə Həmzə Nigari Qarabağinin dini-etik görüşləri analiz edilmişdir. Sufi şairin yaradıcılığında yer almış etik xarakterli bir sıra fikirlər üzərində dayanılmışdır. Göstərilmişdir ki, Həmzə Nigarinin dini-etik baxışları konkret ideya və mənəvi-əxlaqi dəyərlərə əsaslanan düşünülmüş sistem təşkil edir. Onun başlıca xüsusiyyətlərindən biri İlahi eşqlə vətənsevərliyin qarşılıqlı əlaqəsi ilə bağlıdır.

Bundan başqa Azərbaycan sufi şairinin Haqq, ədalət və müstəmləkəçiliklə barışmazlığı fəlsəfi-etik görüşlərindən məntiqi olaraq alınır. Onun haqsızlığa qarşı şəxsi səviyyə ilə yanaşı, qövm səviyyəsində də mübarizə apardığı tezisi irəli sürülür. Buradan Həmzə Nigarinin etik baxışlarının real həyatından da əks olunduğu qənaəti alınır. Məqalədə bu məqamın Yaradana sevgi, yurd sevgisi və insana sevgi ilə əlaqəli olduğu əsaslandırılmağa çalışılır. Həmin aspektdə bir sıra nəticələr çıxarılır.

## Giriş

Azərbaycanda fəlsəfi-dini dünyagörüşü yüksək səviyyədə olan çox sayda fikir sahibləri yaşamışdır. Müxtəlif tarixi mərhələlərdə onlar bütövlükdə nəinki Azərbaycan fəlsəfi və mədəni fikrini zənginləşdirmişlər, həm də ümumilikdə müsəlman və bəşəri mədəniyyət üçün qiymətli töhfələr vermişlər.

Azərbaycanın fikir sahiblərinin yaradıcılıqlarının obyektiv, real və pozitiv ruhda tədqiqinə isə çox rast gəlinmir. Bir sıra hallarda hətta ideoloji "pərdə arxası"ndan baxılır və nəticədə onların fikirləri, ideyaları, mənəvi-ruhi və əxlaqi keyfiyyətləri təhrif olunur. Təbii ki, bunun fonunda Azərbaycan mütəfəkkirlərini ürəkdən və obyektiv tədqiq edənlər də mövcuddurlar. Məhz onların apardıqları araşdırmalar sayəsində indi Azərbaycanda və türk-müsəlman aləmində qiymətli fikir sahiblərimizin mənəvi irsi intensiv araşdırılır. Onların sırasında XIX əsr Azərbaycan fəlsəfi-dini fikrində xüsusi yeri olan Həmzə Nigari də vardır.

Həmzə Nigari haqqında əfsanəvi sayıla biləcək rəvayətlər mövcuddur. Hətta onun öz ölüm gününü öncədən bildiyi haqqında məlumatlar vardır. Həmzə Nigari sürgündə vəfat etdiyindən yerli hakimiyyətdən mürşidinin yanında dəfn olunmasını rica edir. Lakin yolun uzun olmasını nəzərə alan sultan bədənin xarab ola biləcəyini ərz edir. H.Nigari isə "icazəni verin, mən xarab olmaram" məzmununda cavab verir. Və doğurdan da Nigarinin dediyi kimi olur. Bu, hər şeydən öncə Həmzə Nigarinin dərin ruh adamı olduğunu təsdiq edən faktlardan biridir. H.Nigarinin həyat yolu da bunu təsdiq edir.

Bunlarla yanaşı, Həmzə Nigari Qafqaz coğrafiyasında geniş yayılmış dini məktəbin də yaradıcısıdır. Onun ardıcılları Azərbaycanda, indi Ermənistan adlandırılan Azərbaycan əyalətlərində, Borçalıda yaşamışlar. Onlar ustadlarının təlimini yaymış və bir sıra məqamlarda həmin təlimə yaradıcı yanaşmışlar. Bu, H.Nigarinin bütövlükdə din ilə yanaşı fəlsəfi məqamlara da baş vurması ilə əlaqəlidir.

* *AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*E-mail: fakhriya.mamedzade@gmail.com*

Həmin sırada Həmzə Nigarinin etik görüşləri bizi maraqlandırdı. Araşdırmalar göstərdi ki, bu sahədə Nigarinin diqqəti çəkən fikirləri olmuşdur. Onlardan bir qisminin fəlsəfi-etik təhlilinə çalışacağıq.

**I. Yurd sevgisi və Vətənsevərlik: Nigari yaradıcılığında vəhdəti**

Araşdırmaçılar vurğuylayırlar ki, Həmzə Nigari yaradıcılığında doğma yurdu Qarabağa olan sevgisi başlıca yer tutur. Bu sevgi sufinin əsərlərində xüsusi yanğı və özəl fəlsəfi-etik çalarda ifadə edilir. Həmin çalar yurd sevgisinin xüsusi etik kontekstdə təqdim edilməsi ilə bağlıdır. Yəni Həmzə Nigarinin yurduna sevgisi mücərrəd poetik və təsəvvüf mahiyyətli deyil: onun həmişə bir sosial-mədəni və real etik bağlantısı olur. Bu özəlliyi Nigarinin şerlərindən birinin analizi vasitəsi ilə görə bilərik. Həmzə Nigari yazırdı:

> "Sinəmə çəkilən qara dağımdır
> Qara bağrım qanlı Qarabağımdır"... [1, s. 98].

Birinci misrada poetik olaraq Nigari ürəyinə böyük dağ çəkildiyini ifadə edir. Azərbaycan poetik fikir tarixində bu cür bənzətməyə rast gəlinir. "Aşiq" həmişə "sinəsi dağlı" olur. Yəni dərdi iç dünyasına (qəlbinə, ürəyinə, taleyinə) o qədər nüfuz edib ki, onu "sinəsindəki dağ kimi təsəvvür" edir. Və bunun səbəbləri müxtəlif ola bilər: şəxsi pislik, sevdiyi insandan ayrılıq həsrəti, kimlərinsə qəsdi nəticəsində sevgilisindən ayrı düşmək və s.

Həmzə Nigari isə həmin bağlılıqda sinəsinə dağın nəyə görə çəkildiyini sonrakı misrasında ifadə edir. Həmin misrada göstərir ki, "bağrını qara edən" (yəni həyatını qaraldan, taleyinə, qismətinə dərd verən) yurdu Qarabağın "qanlı-qadalı" olmasıdır. Şəxsi dərd-qəmin, həsrətin etik məqamı burada aydın olur: Nigari şəxsi məsələlərdən deyil, Yurdu Qarabağın "qanlı" olmasından böyük dərdə düşmüşdür!

Burada "dərd" və ya "qanlı Qarabağ" anlayışlarının fəlsəfi-etik anlamı üzərində dayanmaq yerinə düşərdi. H.Nigari üçün "dərd" şəxsi olaraq problem deyil. Bu anlayış şerdə işlənən mənada Yurd qarşısında məsuliyyət daşımaq mənasına malikdir. Yəni Yurdun "qanlı" olması təsadüfən insan üçün "dərd" olmur. Bu, yalnız insanın Yurdu üçün məsuliyyət daşıdığı, onun əsl mənada sahibi olduğu halda "dərd"ə çevrilir. Yəni şerdə işlənən kontekstdə Nigarinin Yurd qarşısında böyük məsuliyyət daşıdığı ifadə edilmişdir. Həmin məsuliyyət fərdin Vətəni uğurunda mübarizə aparmağa hazırlığını motivə etmişdir.

Deməli, Həmzə Nigarinin "şəxsi dərdi" fərdidən çox, sosial-etik xarakterə malikdir. Konkret ifadə etsək, onun Yurda "sevgili" münasibəti Yurd üçün "məsuiliyyət daşımaq" keyfiyyəti ilə vəhdətdədir. Və bu məqam bütövlükdə sufi şairin yaradıcılığına xasdır. Həm də bu məsuliyyət sufinin özünün qınağına səbəb ola bilir. Məsuliyyət hissindən özünü günahlandırmaq, doğma torpağına "yad qalmaq" kimi tənqidi mövqeyə gətirib çıxarır. Sonrakı iki misrada həmin məqam belə əks edilmişdir:

> "Qan əkər, odlar tökər Miri-Nigari məgər
> Yad qılıbdır yenə Qarabağ torpağını" [1, s. 98].

"Qan əkib" "odlar tökmək" fəlsəfi-etik baxımdan çox maraqlı təşbehdir. Güclü metaforadır. Bu baxımdan "qan əkmək" hansı anlamı verir? Bunun məna açarı ikinci misradakı fikirdədir. Orada deyilir ki, Miri Nigari (yəni Seyid Nigari) Qarabağ torpağına "yad qaldığı" üçün "qan əkər" və "od biçər"! Burada Füzulisayağı təsəvvüf özünü göstərir, lakin Yurd kontekstiundə! Yəni şair Yurduna yad qaldığından o dərəcədə mütəəssirdir ki, "əkdiyi qan", "biçdiyi isə oddur". Heç yerə sığmır, Yurd deyib fəğan edir, öz odu özünü yandırır! Və bu həsrət, qınaq, özünü ittiham bütün dünyanı şairin gözündən salır. Çünki hesab edir ki, Yurd dərddədirsə və ya itirilibsə, yaşamağın qiyməti qalmır.

Bu əhvalın köklərini də sufi şair açıqlayır. Nümunə gətirilən şerində Həmzə Nigari yazır:

“Bir qönçə gülünün tarımarıyam
Görüm abad olsun ol Qarabağı
Bir gözəl ceyranın giriftarıyam
Şənlik olsun dağı, bağı, ovlağı” [1, s. 98].

Bu misralardan aydın görünür ki, H.Nigarinin bir gözələ sevgisi ilə Yurd sevgisi vəhdətdədir. O, Qarabağın “bir qönçə gülünün tarımarı” olması ilə Yurdun “hər yerinin şənlik olması” arzusunu sanki birləşdirir. Birləşdirir ki, sevdiyi gözələ əbədi vurğun ola bilsin. Qarabağ nə qədər gözəlliyini saxlasa, Həmzə də sevgisindən “tarimar” olduğu bir xanımın gözəlliyini daha dərindən duymuş olacaq. Buradan sufi şairin “gözəllik” anlayışı haqqında maraqlı fəlsəfi-etik qənaət əldə etmək mümkündür.Yəni Həmzə Nigari dərin emosional qatda Yaradana bağlılığı ilə Vətənə və onun bir gözəl pərisinə sevgini eyni qəlibə yerləşdirir.

**II. Nigari yaradıcılığında Allaha və Vətənə sevginin etik anlamı**

H.Nigari yaradıcılığında insanlara və Vətənə olan sevgi Allaha olan sevgidən qidalanır. Bu məqam onun həyat fəaliyyətində də daim özünü göstərib. Belə ki, ömrünün sonuna qədər iki amala sadiq qalıb: birincisi, Allaha inancına, ikincisi, mürşidi Seyid İsmailə! Bunu təsadüfi saymırıq. Çünki həmin özəllik həm Azərbaycan mədəniyyətinin ümummüsəlman mədəniyyətinin tərkib hissəsi kimi ənənəsi ilə bağlıdır, həm də Azərbaycanda ziyalılıq ənənəsində müəllimə sadiqliyin mütləq prinsip kimi qəbul edilməsi ilə əlaqəlidir. Bu iki məqam maraqlı tərzdə ənənəvi olaraq Azərbaycan ziyalılığında Haqq, Ədalət və Sədaqət anlayışlarını ehtiva etmişdir.

Həmin ənənənin mühüm aspektini Gözəllik, Sevgi, Sədaqət anlayışlarının Haqqın Ədalətinə mütləq İnam əsasında məzmunlaşması təşkil edir. Azərbaycan poetik düşüncəsində (o cümlədən, təsəvvüfdə) “haqqına sevmək” və o mənada sadiq olmaq mərkəzi prinsiplərdən olmuşdur. Bizcə, bunun mənəvi-ideya kökünün bir tərəfini İslami dünyağörüşü, digərini isə Azərbaycanda qədimdən mövcud olmuş Nizam, Sevgi və Düzənə İlahi Nizam prizmasında baxmaq təşkil edir. Həmin kontekstdə Allahın yaratdıqlarını Yaradana (Haqqa) görə sevmək ciddi yer tutur. Bunun mənəvi-ruhi mənası dərindir.

Birincisi, insanda təvazökarlığı tərbiyə edir. Çünki insanı Allaha görə sevmək sevdiyinin sahibi, yiyəsi olmaq düşüncəsindən insanı çəkindirir. Hər bir insanın əsl yiyəsi, arxası, sahibi Allahdır düşüncəsi təhtəlşüurda möhkəmlənir. Bu isə çox maraqlı kontekstdə müsəlman mədəniyyətində insana sevginin Kant fəlsəfəsindəki “insan vasitə deyil, məqsəddir” tezisi ilə səsləşir. Daha doğrusu, Kantın İslamın bu prinsipi ilə tanış olub-olmaması sualını aktuallaşdırır. Hər bir halda böyük alman filosofunun etikada əhəmiyyətli yer tutan “kateqorik imperativi” ilə “hər bir eşq Haqqa eşqdən başlar və onda bitər” ehkamı arasında bir bağlantı görmək mümkündür.

Həmzə Nigari yaradıcılığında və həyat fəaliyyətində bu prinsipə tam əməl etmişdir. Bunu onun Muhyiddin Arabinin “Fütuhatı-məkkiyyə” əsərinə yazdığı Təvzihatında görmək olar. Ayrıca, türkcə və farsca yazdığı divanlarda yeri vardır. “Nigarnamə” və “Saqinamə” adlı əsərlərində ifadəsini tapmışdır. Lakin onu da demək lazımdır ki, yuxarıda vurğulanan xüsusiyyətinə görə, H.Nigarinin etik görüşlərini mistisizmə aid etmək doğru olmazdı. Çünki onun poeziyasında ifadə edilən etik prinsiplər birmənalı olaraq praktiki fəaliyyətində, dünyagörüşünün konkret aspektlərində öz ifadəsini tapmışdır. Və bu məqamda H.Nigarinin sufi şair kimi Vətənsevərliyinin vacib bir özəlliyini görmək olar.

Həmzə Nigari ruhani etik qaydaları birbaşa həyatda yaşamış mütəfəkkirdir! Bu onun şəxsi münasibətlərində, əqidədaşlarına olan münasibətdə və Vətənə olan münasibətində harmoniya şəklində özünü göstərmişdir. Vurğulanan maraqlı etik özəlliklər tədqiqatçılar tərəfindən müxtəlif kontekstlərdə araşdırılmış və konkret tezislərdə ifadə edilmişdir [bax: məs., 2 və 3]. Nümunə kimi

araşdırmaçıların Həmzə Nigarinin mürşidi Seyid İsmailə sadiqliq nümayiş etdirərək uzun yolu qət etməklə onu müəlliminin yanında basdırılmasını təkidlə vəsiyyət etməsini göstərmək olar.

Türkiyəli araşdırmaçı Müzəffər Doğanbaş yazır ki, Həmzə Nigari "öz arzusu ilə Amasyada türbəsinin olduğu yerdə basdırılmışdır [4, s. 19]. Həmin yerdə onun mürşidi Seyid İsmayılın qəbri mövcuddur. Mənbələrdə göstərilir ki, H.Nigari məsafəcə uzaq olmasına baxmayaraq, sultandan xahiş edir ki, onun nəşini Amasiyaya aparıb, müəlliminin yanında dəfn etsinlər. Seyid Ramin də bununla bağlı apardığı araşdırmada yazır: "Vəsiyyətinə uyğun olaraq Seyid Həmzəni Amasyada torpağa tapşırırlar. Maraqlısı budur ki, Harputdan Amasyaya qədər olan məsafənin uzunluğuna və havanın həddən çox isti olmasına baxmayaraq, onun nəşinə heç bir şey olmamış, bu da bir çoxlarını heyrətləndirmiş, Seyid Həmzənin övliya olmasına bir daha şübhə yeri qoymamışdır" [bax: 5].

Başqa bir nümunə kimi H.Nigarinin müsəlman ümmətinin bütövlüyünü qorumaq üçün məzhəbçiliyə qarşı qətiyyətlə mübarizə aparmasını göstərmək olar. Hətta onun "nə şiəyəm, nə sünni, xalis müsəlmanam" dediyi haqqında tarixi bilgilər mövcuddur [4, s. 5,19]. Buna baxmayaraq, sufi şairi əqidəsinə görə cəmiyyətdə, hakimiyyətdə incidib. Onun evini daş-qalaq ediblər, hakimiyyət isə sürgünə göndərib. Osmanlı dövləti sufi şairi iki dəfə sürgün edib və sonuncu sürgün yeri vəfat etdiyi Harput şəhəri olub.

Lakin H.Nigari nə Vətən sevdasından, nə ruhani əqidəsindən, nə də mübarizəsindən geri çəkilməyib. Onu hara sürgün etsələr də, arı-ayrı yerlərə getməyə məcbur qalsa da, mənəvi-əxlaqi dəyərlərindən, etik prinsiplərindən və əqidəsindən imtina etməyib.

Əksinə, H.Nigari doğma Qarabağının rus işğalı altına düşməməsi üçün əqidədaşları ilə mübarizəyə qoşulmuşdur. Tarixin məntiqidir ki, H.Nigari Şuşada Qarabağın taleyi ilə bağlı keçirilən toplantılarda aktiv iştirak etmişdir və bu fəaliyyətinə görə də yurdundan didərgin düşmüşdür.

Seyid Ramin Həmzə Nigarinin bu iradi qətiyyətinin kökündə onun İslamda cihad anlayışına qəlbən bağlı olması faktorunun dayandığı nəticəsinə gəlmişdir [bax: 5]. Eyni qənaətə başqa tədqiqatçılar da gəlmişlər. Məsələn, Ə.Ələsgərli vurğulayır ki, H.Nigari rus istilasına qarşı Osmanlı ordusu tərkibində vuruşmuşdur və "...bu, şübhəsiz ki, onun ədalətsizliyə, müstəmləkəçiliyə qarşı mübarizə əzmindən, islamda cihad anlayışına verdiyi inamdan irəli gəlirdi" [6, s. 34].

Tədqiqatçıların vurğulanan fikirlərində Həmzə Nigarinin etik baxışları üçün maraqlı olan bir məqam özünü göstərir. Belə aydın olur ki, Nigarinin yaradıcılığında və fəaliyyətində İslamda mövcud olan cihada inamla ədalətsizliyə, haqsızlığa dözümsüzlüyün sintezi Vətən sevgisinin möhkəm təməlini əmələ gətirmişdir. Onun yadellilərin Yurdunu (və geniş anlamda Vətənini) işğal etməsinə qarşı praktiki olaraq mübarizə aparmasında dönməzliyi həmin məqam təşkil edir. Belə çıxır ki, Azərbaycanın sufi şairi üçün iman, Haqqa mütləq inam, ədalətsizliyə dözümsüzlük Vətənə münasibətin formalaşmasında həlledici rol oynamışlar. Bu da Həmzə Nigarinin fəlsəfi-etik görüşlərinin bütövlükdə həyat fəaliyyətində əsas yeri tutduğunu göstərir.

Tədqiqatçılar sufi şairin baxışlarının bu aspektini də analiz etmişlər. Bilal Həsənli yazır ki, Həmzə Nigari, ümumiyyətlə, insanın "...mənəvi aləmini, iç dünyasının gözəlliyini, əxlaqi kamilliyini tərənnüm edir...". Buna görədir ki, "Nigarinin lirik qəhrəmanı əql, idrak, mənəviyyat mücəssəməsi, həyati və ilahi gözəllikləri qiymətləndirən, ondan zövq alan, eşq və məhəbbəti ali məqsədə çevirən, vətənpərvərlik, səmimiyyət kimi mənəvi məziyyətləri ilə seçilən dərin zəka sahibi, nəcib insan, mərifət əhlidir" [7, s. 118].

Fikirlərinə davam edərək B.Həsənli belə bir qənaət əldə edir: "Azadlıq aşiqi olmaq, mübarizlik, vətənpərvərlik Nigarinin kamil insanda yüksək dəyərləndirdiyi məziyyətlərdir. Şairin öz Vətəninə, "dünyanın behişti" adlandırdığı Qarabağa həsr edilmiş şeirlərində bu mənəvi dəyərlər yüksək sənətkarlıqla əks etdirilmişdir. Şairin fikrincə, vətənpərvərlik kamil insana xas olan mənəvi dəyərlər sırasında xüsusi mövqeyə malikdir, doğma yurda, onun insanlarına, təbiətinə, daşına, torpağına məhəbbət və minnətdarlıqdır" [7, s. 118-119].

Araşdırmaçının vurğulanan qənaətləri Nigarinin dünyagörüşündə etik yanaşmanın və iradi keyfiyyətlər arasında maraqlı əlaqələri görməyə imkan verir. Maraqlıdır ki, H.Nigari bütün mənəvi-

əxlaqi və iradi keyfiyyətlərin mərkəzinə kamil insan idealını qoyur. Bu baxımdan onun etik və mənəvi-iradi keyfiyyətlər haqqında anlayışı Kamil İnsanı xarakterizə etməyə xidmət edir. Burada gözəllik və əxlaqi kamillik özəl yer tutur. Bunlardan başqa, sufi şair üçün əql, idrak, mənəviyyat, ilahi və həyati gözəlliklərin qarşılıqlı əlaqəsi, estetik zövq, vətənpərvərlik və səmimiyyəti kamilliyin əlamətləri kimi təqdim edir. Bütün bunların kökündə isə Yaradana Sevgi (Eşq, İlahiyə Aşiqlik) və ondan qaynaqlanan İnsan Sevgisi (Məhəbbət) dayanır. Əslində, Azərbaycan fəlsəfi-poetik təfəkküründə bu mövzu çox dərindədir və onun ayrıca araşdırılması lazımdır. Bu məqalədə onu reallaşdırmaq imkan xaricindədir.

Belə görünür ki, Həmzə Nigarinin fəlsəfi-etik baxışları Mənəviyyat-Əxlaq-İradə "zəncirində" məntiqi məzmun kəsb edən dərin düşünülmüş müddəalardan ibarətdir. Yəni burada sırf emosional və ya ancaq ideoloji aspekt mövcud deyil, sufi şair əsaslı dünyagörüşünə sahib olmuşdur. Həyatında da onları ciddi surətdə gözləmişdir.

Bütün bunlar onu təsdiq edir ki, Həmzə Nigarinin fəlsəfi-etik görüşləri onun Kamil İnsan anlayışının mərkəzində dayandığı baxışların sistemidir. Bu sistemdə Azərbaycan fəlsəfi-dini ənənəsinin kanonları ciddi surətdə yer almışdır. Eyni zamanda, Həmzə Nigari mənəvi-əxlaqi dəyərlər və iradi keyfiyyətlər məsələlərinə yaradıcı yanaşmışdır. Bu yanaşmada İlahi Aşiqliklə Vətənpərvərliyin çox maraqlı qarşılıqlı əlaqəsi özünü göstərməkdədir. Aparılan analiz təsdiq edir ki, Həmzə Nigarinin yaradıcılığında əsas yeri tutan dəyərlər onun həyat fəaliyyətində də başlıca istiqamətverici dəyərlər rolunu oynamışdır. Bu təsir o dərəcədə yüksək olmuşdur ki, heç bir cəza, ayrılıq, sürgün və maneələr sufi şairi yolundan döndərə bilməmişdir. Görünür, bu keyfiyyəti onun Azərbaycan, Türkiyə, Borçalı və Dağıstanda çoxlu tərəfdarlarının toplanmasını motivə etmişdir. Bir neçə yerdə ustadın ziyarətgahları mövcuddur. Onun müridləri də Həmzə Nigari ruhunu saxlamışlar və ona uyğun həyat sürmüşlər. Bu isə o deməkdir ki, Həmzə Nigari İdeya və Mənəviyyat kimi ölümsüzdür. O, əbədi olaraq Azərbaycan xalqının şüuri və mənəvi-ruhi təcrübəsində qalacaqdır!

**Nəticə**

Bu məqalədə vurğulanan bir sıra nəzəri və praktikii məqamlar Həmzə Nigari ilə bağlı maraqlı fikirləri irəli sürməyə imkan verir. Onları qruplaşdırsaq, aşağıdakı müddəaları irəli sürə bilərik:

1. Həmzə Nigari Qarabağ mədəniyyətini ümummüsəlman mədəniyyəti ilə sıx bağlılıqda görə bilən sufilərimizdəndir. Bu özəllik onun etik baxışlarında öz əksini tapmışdır.
2. Həmzə Nigarinin etik təsəvvürləri onun poetik düşüncəsində dini formada ifadə edilmişdir. Şerlərinin analizi göstərir ki, Nigari doğma yurdu olan Qarabağda Ədalətin, Azadlığın, Ruhaniliyin bərqərar olmasına çağırır.
3. Həmzə Nigari Allahın Mütləq Gözəlliyinin hər bir yaradılmışa sirayət etdiyini və bu aspektdə insana sevgi ilə vətənə sevginin çulğalaşdığını ifadə edir. Həmin baxımdan "Nigari" təxəllüsü Həmzənin yalnız bir qadına deyil, ümumiyyətlə, Allahin xəlq etdiyi bütün varlıqlara aid olunan təsiri bağışlayır.
4. Həmzə Nigarinin etik dəyərlərə münasibəti passiv seyrçi formasında deyil. Əksinə, o, həyatı boyu mənsub olduğu xalqın, üzvü olduğu ümmətin və övladı olduğu Vətənin Ədaləti, Azadlığı və Ruhaniliyi uğrunda mübarizə aparmışdır. Məhz həmin yolda da şəhid olmuşdur, deyə bilərik. Çünki onun tez-tez coğrafi məkanı dəyişməsi və bu zaman müsəlman coğrafiyasından kənara çıxmaması bir Vətənsevər mücadiləçidən söhbət getdiyini göstərir.

## ƏDƏBİYYAT


1. Məmmədova, X. (2020) Mir Həmzə Seyid Nigari // Elm və İnnovativ Texnologiyalar. Bakı, № 15, - s. 93-100.
2. II Beynəlxalq Həmzə Nigari Simpoziumu: [Elektron resurs]– 2014.20-22.10. - Bakı-Qazax, Azərbaycan. (Hazırlayanlar:Dr. Fariz Xəlilli, Dr. Metin Hakverdioğlu). – Bakı, - 2017, - 412 s. URL: https://www.academia.edu/77799269. Müraciət tarixi 11.05.2022.
3. III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni irsi Simpoziumu materialları: [Elektron resurs] // – 2017. 17-18.05. - Şamaxı, Azərbaycan, -2017, 724 s. URL: https://www.academia.edu/78486414. Müraciət tarixi 11.05.2022.
4. Muzaffer, D. (2017) Seyyid Mir Hamza Nigârî ve türbesi: [Elektron resurs] / II Beynəlxalq Həmzə Nigari Simpoziumu. – 2014.20-22.10. - Bakı-Qazax, Azərbaycan. (Hazırlayanlar:Dr. Fariz Xəlilli, Dr. Metin Hakverdioğlu). – Bakı, s. 18-26. URL: https://www.academia.edu/77799269. Müraciət tarixi 11.05.2022.
5. Seyid Ramin. (2013) Seyid Nigari: döyüşçü, sufi, şair ömrü: [Elektron resurs] // - Bakı. URL: http://kulis.az/news/6520. Müraciət tarixi 11.05.2022.
6. Ələsgərli, Ə. (2017). Seyid Həmzə Nigari yaradıcılığında Qarabağ mövzusu: [Elektron resurs] / II Beynəlxalq Həmzə Nigari Simpoziumu. – 2014.20-22.10. -Bakı-Qazax, Azərbaycan. (Hazırlayanlar:Dr. Fariz Xəlilli, Dr. Metin Hakverdioğlu). Bakı, s. 33-36. URL: https://www.academia.edu/77799269. Müraciət tarixi 12.05.2022.
7. Həsənli, B. (2017). Mir Həmzə Nigari poyeziyasında kamil insan problemi: [Elektron resurs] // III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni irsi Simpoziumu materialları. Şamaxı, Azərbaycan, s. 118-125. URL: https://www.academia.edu/78486414. Müraciət tarixi 12.05.2022.


## *РЕЗЮМЕ*

***Фахрия МАМЕДЗАДЕ***

### *Религиозно-этические взгляды Хамза Нигари*

***Ключевые слова:*** *Карабахская культура, религиозно-этические взгдяды, патриотизм, свобода, честность*

В статье анализируются религиозно-этические взгляды Хамзы Нигари Карабаги. Акцентируется внимание на ряде этических идей в творчестве суфийского поэта. Показано, что религиозно-этические воззрения Хамзы Нигари образуют продуманную систему, основанную на конкретных идеях и нравственных ценностях. Одной из главных его особенностей является взаимодействие божественной любви и патриотизма.

Кроме того, несовместимость взглядов азербайджанского поэта-суфия с истиной, справедливостью и колониализмом логически вытекает из его философско-этических воззрений. Его борьба с несправедливостью позволяет сделать вывод, что этические взгляды Хамзы Нигари находят свое отражение и в реальной жизни. В статье делается попытка обосновать, что это связано с любовью к творцу, любовью к стране и любовью к человеку. В связи с этим делается ряд выводов.

## *SUMMARY*

***Fakhriyya MAMMADZADE***

### *Hamza Nigari's Religious and Ethical Views*

***Keywords:*** *Karabakh culture, religious and ethical views, patriotizm, freedom, justice*

The article analyzes the religious and ethical views of Hamza Nigari Karabagi. Attention is focused on a number of ethical ideas in the work of this Sufi poet. It is shown that Hamza Nigari's religious and ethical views form a well-thought-out system based on specific ideas and moral values. One of the main features of this system is the interaction of divine love and patriotism.

In addition, the incompatibility of the views of the Azerbaijani Sufi poet with truth, justice and colonialism logically follows from his philosophical and ethical views. His fight against injustice leads to the conclusion that the ethical views of Hamza Nigari are reflected in real life. The article attempts to substantiate that this is connected with love for the creator, love for the country and love for the person. In this regard, the author makes a number of conclusions at the end of the article.